# MÜŞFİQ BORÇALI - 55



**Məlahət SAHİBQIZI,**
**AYB-nin və AJB-nin üzvü**

## MÜBARƏKDİ YUBİLEYİN

*Qovur illər biri-birin,*
*Xoşbəxt olsun gələn ömrün.*
*Yaş da ötür əlli beşin,*
*Mübarəkdi yubileyin.*

*Bu yaş nədir sənə hələ,*
*Yüz yaşa sən indən belə.*
*Qürur duysun sənlə elin*
*Mübarəkdi yubileyin.*

*Yaşa günlər gülə-gülə,*
*Sən dayaqsan böyük elə.*
*Övladısan sən alimin,*
*Mübarəkdi yubileyin.*

*Adın Müşfiq, zəkan işıq,*
*Qəd-qamətin nur-yaraşıq.*
*Çox sevinir oba-elin,*
*Mübarəkdi yubileyin.*

*Hər bir kəsə pənah oldun,*
*Elmdə zirvədə durdun.*
*Dünya boyda var ürəyin*
*Mübarəkdi yubileyin.*

*Yüz il yaşa sağlam canla,*
*Günün keçsin gözəl anla.*
*Zirvəsi ol yerin-göyün,*
*Mübarəkdi yubileyin.*

*Məlahətəm, xoş söz dedim,*
*Müşfiq müəllim təbrik edim,*
*Ürək sözün belə deyim,*
*Mübarəkdi yubileyin!*
*Mübarəkdi yubileyin!*

**21.01.2025**